# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış"**



4


SƏS

№ 018 (7428)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

6 mart 2026-cı il.
Qiyməti 1 manat


# Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir!

2



*Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib*

# Naxçıvana dron hücumu - İran bizi niyə hədəf alıb?

3



**Azərbaycan istənilən təhdidin qarşısını almağa qadirdir**

6

**Süni intelektlə hazırlanan saxta videolara görə kim məsuliyyət daşıyır?**



5

**Banklarda dollar alışına qoyulan limitlərin səbəbi nədir?**



8

## İran münaqişəsi Avropada qaz qıtlığı yaradıb



7

## MN: İran Naxçıvana 4 PUA ilə hücum edib, biri sıradan çıxarılıb



5



# Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir!

## *Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib*

***Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

-Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat “Kalaşnikov”la, “Molotov” kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı “Dəmir yumruq” vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər. Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə əlaqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuatda dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim “Dəmir yumruğ”umuzu görəcək.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirak edən Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



# Prezident İlham Əliyev Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarını qəbul edib

Dan Yorgensen dövlətimizin başçısının Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının açılışındakı çıxışının onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Dan Yorgensen bugünkü tədbirin çox mühüm əhəmiyyət daşıdığını qeyd edərək, ölkəmizlə tərəfdaşlığın onlar üçün önəm kəsb etdiyini bildirdi və onu genişləndirməkdə maraqlı olduqlarını vurğuladı. O, həyata keçirilən əməkdaşlığa görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın və Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosun ötən il ölkəmizə səfərlərinə toxunaraq, heyətlərimizin fəal işləməsini enerji və bağlılıq məsələlərində əməkdaşlığı dərinləşdirmək üçün hər iki tərəfdə olan iradənin göstəricisi kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanın, xüsusən hazırkı dövrdə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu, enerji sahəsində ölkəmizin Avropa bazarında ixrac coğrafiyasının genişləndirilməsi və təbii qaz, yaşıl enerji ilə bağlı əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.








***İsrailin və körfəz ölkələrinin hava limanlarına, enerji infrastrukturlarına və otellərə hücum edən İran rejiminin bu qədər həddini aşacağını kimsə gözləmirdi. Xüsusən Azərbaycana qarşı xaincəsinə edilən dron hücumlarının ola biləcəyi ehtimalı barədə az adam düşünə bilərdi.***

# Naxçıvana dron hücumu - İran bizi niyə hədəf alıb?

## *Tehranın qonşu ölkələrə yönələn təhlükəli strategiyanın növbəti siqnalı*

Çünki Azərbaycan İran ətrafında baş verənlərlə yaxından, uzaqdan heç bir əlaqəsinin olmadığı və üçüncü ölkələrin ölkəmizin ərazisindən istifadə etmək imkanının sıfır həddində olması barədə rəsmi şəkildə dəfələrlə bəyanatlar verilmişdi. İrana qarşı ABŞ və İsrailin hücumlarının davam etdiyi altı gün ərzində İran-Azərbaycan sərhədində dəyişən heç nə olmadı. İran dini liderinin ölümü ilə bağlı bu ölkənin prezidenti Pezeşkiana Prezident İlham Əliyevin başsağlığı ünvanlandı, XİN də öz xətti ilə hadisəyə münasibət bildirdi. Üstəlik, Preziden İlham Əliyev İranın Azərbaycandakı səfirliyinə gedərək Xamneyinin ölümü ilə bağlı başsağlığı verdi.

Amma İran rejimi yenə Azərbaycan barədə yanlış düşündüyünü bir daha isbatlamış oldu. Körfəz ölkələrinə hücumlarla müharibənin arealını böyütməyi hədəfləyən rəsmi Tehran Türkiyəyə endirdiyi ballistik raket zərbəsinin ardınca Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana, həm də heç bir hərbi hədəf statusunu daşımayan hava limanına və məktəbə dronla hücum etməsi İranın əsl niyyətini ortaya qoyur. Naxçıvan hava limanına hücum Azərbaycana qarşı birbaşa təhdid xarakterlidir. Bu hücum molla rejiminin mahiyyətini ortaya qoyur. Əminliklə söyləyə bilərik ki, molla rejimi təkcə İran xalqı üçün yox, həm də bütün region üçün təhlükə mənbəyidir.

Qeyd edək ki, İranın atdığı 1 ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. Hava Limanının binasına zərər dəyib və iki nəfər mülki şəxs xəsarət alıb

### İran ətrafında baş verənlər

İsrail və ABŞ-ın bu ölkəyə total hücumu barədə müzakirələrdə analitiklər adətən bir neçə əsas məqsədi qeyd edirlər. Bu məqsədlər dövlətlərə görə fərqli olsa da, ən çox danışılan strateji səbəblərdən biri nüvə proqramını dayandırmaq, İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır. İranın nüvə fəaliyyəti uzun illər beynəlxalq mübahisə mövzusu olub. Birləşmiş Ştatlar və xüsusilə İsrail İranın potensial nüvə silahına sahib olmasını böyük təhlükə kimi görür. Bu mövzu ilə bağlı mühüm diplomatik razılaşma da olmuşdu. Hərbi ssenaridə məqsəd nüvə obyektlərini bombalamaq, uran zənginləşdirmə infrastrukturlarını məhv etmək, proqramı illərlə geri atmaqdır.

İkinci bir məqsəd İranın regional təsirini zəiflətməkdir. İran Yaxın Şərqdə müxtəlif silahlı və siyasi qruplarla əlaqələrə malikdir. Hezbollah (Livan), HAMAS (Qəzza) və Husilər (Yəmən) özlərini Tehran rejiminin proksi qüvvələri kimi təsdiq ediblər. Əksər regional və dünya ölkələri hesab edir ki, İran bu şəbəkə vasitəsilə regionda təsirini genişləndirir. Hərbi təzyiqin məqsədi bu şəbəkəni zəifləməkdir.

Üçüncü bir məqsəd İranın hərbi infrastrukturu məhdudlaşdırmaqdır. İran regionda raket proqramı və hərbi texnologiyalar inkişaf etdirir. Mümkün hücumun hədəfləri raket bazaları, pilotsuz uçuş aparatları proqramları, hərbi sənaye obyektləridir. Bu tip əməliyyatların məqsədi İranın hərbi imkanlarını məhdudlaşdırmaqdır.

Dördüncüsü, daxili siyasi təzyiq yaratmaqdır. Bəzi analitiklər hesab edir ki, xarici hərbi təzyiq iqtisadi vəziyyəti daha da ağırlaşdıra, hakimiyyət daxilində parçalanma yarada və daxili narazılığı artıra bilər. Bu yanaşmaya görə, məqsəd birbaşa rejimi devirmək deyil, onu zəiflətmək və dəyişiklik üçün təzyiq yaratmaqdır.

Beşincisi, enerji və strateji nəzarət məsələsidir. İran dünya enerji marşrutları üçün çox strateji yerdə yerləşir. Xüsusilə Hörmüz boğazı və Fars körfəzi bölgəsindən dünya neftinin böyük hissəsi keçir. Bu səbəbdən İranın bu bölgədəki hərbi gücü bəzi dövlətlər üçün strateji risk kimi görülür.

### Rejimi necə dəyişməli?

İranda rejimin dəyişməsi mövzusu həm siyasi analitiklər, həm də region ölkələri üçün çox müzakirə olunan mövzudur. Hazırda konkret olaraq "ABŞ və İsrailin vətəndaş müharibəsi planı var" kimi təsdiqlənmiş rəsmi plan açıqlanmayıb. Amma analitiklər müxtəlif mümkün ssenariləri müzakirə edirlər. Bunları ümumi şəkildə belə qruplaşdırmaq olar. Birincisi, daxili etirazlar və tədrici siyasi dəyişiklikdir. Bu, ən çox danışılan ssenarilərdən biridir. İranda artıq bir neçə dəfə böyük etiraz dalğaları olub. Məsələn, Mahsa Amini etirazları zamanı baş verənlər. Görünür ki, sosial, iqtisadi və siyasi narazılıq artdıqca sistem daxilində parçalanma yarana bilər. Hakimiyyət daxilində reformist qanad gücləndirsə, rejim tədricən dəyişə və ya yumşala bilər. Burada üstünlük odur ki, daha az zorakılıq baş verər. Risk isə odur ki, sistemin İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) kimi güclü təhlükəsizlik strukturları var.

İkincisi, elita daxilində çevrilişdir. Bəzən analitiklər hesab edir ki, dəyişiklik hakimiyyət daxilindən gələ bilər. Siyasi və hərbi elitalar arasında parçalanma baş verər və dini rəhbərliklə dövlət strukturları arasında konflikt, o cümlədən iqtisadi sanksiyalar səbəbilə daxili narazılıq arta bilər. Bu halda rejim tam çökmədən yuxarıdan dəyişiklik ola bilər.

Üçüncüsü, kütləvi üsyan və vətəndaş müharibəsidir. Bu ssenari ən riskli hesab olunur. Etnik və regional qruplar (kürd, bəluç və s.) silahlı müqavimətə keçə bilər. Mərkəzi hakimiyyət zəifləsə, müxtəlif silahlı qruplar ortaya çıxa bilər. Belə bir vəziyyət müəyyən qədər Suriyada baş verən hadisələrin ssenarisinə bənzəyə bilər. Amma analitiklərin çoxu hesab edir ki, İranın güclü təhlükəsizlik aparatı buna imkan verməməyə çalışacaq.

Dördüncüsü isə, xarici hərbi təzyiq və ya müharibədir. Bəzən belə ehtimallar da müzakirə olunur. İranın nüvə proqramı ilə bağlı gərginlik, regionda müharibə eskalasiyası İsrailin və ABŞ-ın bu gün atdığı addımlar kimi, digər daha çətin, daha pis ssenarinin düyməsini sıxa bilər. Lakin açıq şəkildə "rejimi dəyişmək üçün birbaşa hərbi müdaxilə planı" rəsmi səviyyədə elan edilməyib. 2003-cü ildəki İraqdakı kimi bir ssenari hazırda çox riskli sayılır. Çünki İran daha böyük və daha güclü dövlətdir, enerji bazarına böyük təsir imkanlarına sahibdir.

Analitiklərin ümumi fikri budur ki, İranda dəyişiklik ehtimalı varsa belə, ən real ssenari daxili siyasi proseslər və etirazlar nəticəsində tədrici transformasiya sayılır. Tam miqyaslı vətəndaş müharibəsi isə çox riskli və proqnozlaşdırılması çətin ssenaridir və böyük güclər adətən bundan qaçmağa çalışır.

Bəzi geopolitik analitiklər hesab edir ki, İranın gələcəyi müəyyən mənada SSRİ kimi daxili proseslərlə dəyişə bilər. Səbəblər dən biri demoqrafik dəyişiklikdir. İran əhalisinin böyük hissəsi gənclərdir. İnternet və qlobal mədəniyyət təsiri çox güclüdür. İqtisadi təzyiqlər də istisna deyil. Uzun illərdir sanksiyalar var, inflyasiya və işsizlik yüksək səviyyədədir. Elita daxilində parçalanma hökm sürür, siyasi sistemdə müxtəlif fraksiyalar - sərt xətt tərəfdarları, reformist siyasətçilər var ki, bu qruplar arasında mübarizə zamanla sistemin transformasiyasına gətirə bilər.

Bəzi geopolitik analizlərdə İranın etnik xəritəsi də müzakirə olunur. Ölkədə müxtəlif etnik qruplar - Azərbaycan türkləri, kürdlər, bəluclar, ərəblər və farslar yaşayır. Bu səbəbdən əgər mərkəzi hakimiyyət ciddi zəifləsə, regional separatizm yarana bilər. Amma əksər ekspertlər deyir ki, İranın dövlət strukturu çox qədim və güclüdür, bu səbəbdən tam parçalanma ehtimalı aşağıdır. Məsələyə real geopolitik yanaşsaq ilkin olaraq əsas məqsəd İranın nüvə silahı əldə etməsinin qarşısını almaq, regionda təsirini balanslaşdırmaq, amma böyük müharibədən qaçmaqdır. Çünki İranla müharibə ehtimalı Yaxın Şərqdə geniş müharibəyə, enerji böhranına və yeni qaçqın dalğasına səbəb ola bilər. Bir faktı da deyək, bəzi geopolitik analitiklər hesab edir ki, İran rejiminin gələcəyini ən çox təsir edə biləcək üç hadisə maraqlıdır - dini liderdən sonra hakimiyyətin kimə keçəcəyi, böyük iqtisadi böhran, böyük regional müharibə.

### İraq kürdləri İran sərhədini pozdu...

İraqda yerləşən kürd hərbi birləşmələri İran rejiminə qarşı hücuma başlayıb və İrana daxil olaraq quru əməliyyatı keçiriblər. Əməliyyatın özü 2 martda başlayıb. Bu barədə məlumatı 4 mart çərşənbə günü sosial mediada kürd silahlı qruplarındakı mənbələr verib. Məlumata görə, İraqdakı kürd qüvvələri İran İslam rejiminə qarşı quru hərbi əməliyyatına başlayıblar. Bazar ertəsi günü minlərlə kürd döyüşçüsü İranda döyüş mövqelərini tutmağa başlayıb. Məlumata görə, Kürdüstan Azad Həyat Partiyası (PJAK) ilə əlaqəli döyüşçülər İraqdan sərhədi keçiblər və hazırda birbaşa İran torpağında döyüş mövqeləri qururlar.

### İran isə İsraili nüvə apokalipsis ilə hədələyir

İranın hərbi komandanlığı İsrail və ya ABŞ İslam Respublikasında rejim dəyişikliyinə cəhd göstərərsə, təhdidini həyata keçirməyə hazır olduğunu bəyan edib. İran xəbər agentliyi ISNA-nın məlumatına görə, Tehran ABŞ və İsrailin hazırlaya biləcəyinə inandıqları rejimi devirmək cəhdlərinə cavab olaraq İsraildəki nüvə obyektinə zərbə endirib. Agentliyin məlumatına görə, İran ordusu İsrailin nüvə proqramının əsas elementi olan və Negev səhrasında yerləşən Dimonadakı strateji obyektə hücum etməyi düşünür. Belə bir addım mövcud İran rəhbərliyinə qarşı hərəkətlər edildiyi təqdirdə həyata keçirilə bilər. Agentlik İranın mövqeyinə istinadən bildirir ki, "Rejim dəyişikliyi cəhdləri halında, İran strateji obyektlərə zərbə endirməklə cavab vermək hüququnu özündə saxlayır".

"İran Nuances" tərəfindən istinad edilən adı açıqlanmayan yüksək vəzifəli İran hərbi rəsmisinin sözlərinə görə, raketlər Dimona nüvə reaktoruna və bütün regional enerji infrastrukturuna yönəldiləcək. "Biz artıq bu ssenariyə hazırlaşmışıq", - deyə o xəbərdarlıq edib. Bu açıqlama ilə bağlı İsrail tərəfindən heç bir rəsmi açıqlama verilməyib. Ağ Evin sözçüsü Kerolin Livitt daha əvvəl ABŞ-ın İran ətrafındakı suları effektiv şəkildə idarə etdiyini bildirmişdi. O, həmçinin qeyd etmişdi ki, bir neçə saat ərzində ABŞ ölkənin hava məkanına tam nəzarət edəcək. Livitt əlavə edib ki, hazırda bütün İran gəmiləri hərəkətsizdir və heç biri üzmür. Eyni zamanda, Livitt İspaniyanın ABŞ-ı dəstəkləməyə razı olduğunu bildirsə də, İspaniya Xarici İşlər Nazirliyinin İrana qarşı zərbələr üçün bazalarından istifadənin qadağan edilməsi ilə bağlı dəyişməz mövqeyini vurğulayıb.

ABŞ prezidenti Donald Tramp isə İrana qarşı hərbi əməliyyatın gedişatını yüksək qiymətləndirib və Ağ Evdəki brifinqdə kampaniyanın effektivliyinin gözləntiləri aşdığını qeyd edib. O, ABŞ ordusunun göstəricilərinin "10 baldan 15-i" olduğunu bildirib.

***V.VƏLİLİ***

RAKURS






# “Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış”







***Martın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə “Yeni reallıqlar və müasir Azərbaycan: aktual çağırışlar fonunda gələcəyə baxış” mövzusunda tədbir keçirilib. Əvvəlcə Azərbaycan Tibb Universitetinin inzibati binasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli hazırda beynəlxalq müstəvidə gərgin proseslərin baş verdiyini bildirib. Onun sözlərinə görə, önəmli geostrateji məkanda yerləşən Azərbaycan bu gün dünyada sabitlik adası kimi tanınır: “Müstəqil Azərbaycan çətin sınaqlardan keçib, ölkəmizin yüksəlişinə böyük zəhmət sərf olunub. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi qətiyyətli siyasətlə Azərbaycanı bütün təhlükələrdən xilas edərək inkişaf yoluna çıxardı. Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirir”.

G.Gəraybəyli deyib ki, qazanılan uğurlar, xüsusilə ərazi bütövlüyünün və mütləq suverenliyin bərpası Azərbaycanın beynəlxalq arenada mövqelərini möhkəmləndirib. “Bu gün regionda bütün irimiqyaslı layihələr ölkəmizin iştirakı, milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycanın beynəlxalq səviyyədə əldə etdiyi bütün uğurlar yeni çağırışlarla səsləşir. Ölkəmiz Cənubi Qafqazda sülhün, əmin-amanlığın, davamlı inkişafın təşəbbüskarı kimi çıxış edir”, - deyə rektor əlavə edib.

O qeyd edib ki, müəyyən xarici dairələr ölkəmizin uğurlarını həzm edə bilmirlər, ona görə də müxtəlif vasitələrlə təzyiq göstərməyə cəhd edirlər: “Həmin dairələr gənclərimizi də zərərli ideoloji istiqamətlərə yönəltməyə çalışırlar. Lakin vətənpərvər Azərbaycan gəncliyi hər zaman ayıq-sayıqdır. Gənclərlə ideoloji iş Azərbaycan Tibb Universitetində daim diqqət mərkəzindədir”.

Çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov müasir müstəqil Azərbaycan dövlətinin şərəfli inkişaf yolu keçərək tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini bildirib: “Müstəqilliyin bərpasından sonrakı ilk illərdə ölkəmizin bir dövlət kimi mövcudluğu sual altında idi. Bəzi qüvvələr Azərbaycanın parçalanması istiqamətində məqsədli fəaliyyət göstərirdilər. Xalqımızın yeganə ümid yeri isə dahi şəxsiyyət Heydər Əliyev idi. 1992-ci ildə 91 nəfər ziyalının Ulu Öndərə müraciət etməsi və müdrik dövlət xadiminin bu müraciətə müsbət cavab verməsi nəticəsində Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtması Azərbaycanın təlatümlərdən qurtularaq inkişaf yoluna çıxmasını şərtləndirdi”.

Tahir Budaqov Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə Azərbaycana qarşı yönəlmiş məkrli planların qarşısının məharətlə alındığını və xalq-iqtidar birliyinin təmin olunduğunu söyləyib. Onun sözlərinə görə, Ulu Öndərin dövrün çağırışlarına cavab verən siyasəti nəticəsində sabitlik və təhlükəsizliyin, sosial-iqtisadi inkişafın təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması və digər mühüm faktorlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etdi.

YAP Sədrinin müavini bildirib ki, Ümummilli Liderin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edərkən müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: “Ulu Öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirməkdədir. Azərbaycanın möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyü və mütləq suverenliyin bərpasına nail olması isə xalqımızın şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsidir”.

Tahir Budaqov əlavə edib ki, müstəqil siyasət həyata keçirən, dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bu gün nəinki regionda, daha geniş coğrafiyada söz sahibi olan bir dövlətdir: “Ölkəmiz sülh diplomatiyası həyata keçirərək bölgədə yeni siyasi konfiqurasiyanın qurulmasında aparıcı rol oynayır. Eyni zamanda, Azərbaycanın qlobal əhəmiyyətli təşəbbüsləri beynəlxalq səviyyədə dəstəklənir”.

Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini söyləyib. YAP Nəsimi rayon təşkilatının təsis konfransının Azərbaycan Tibb Universitetində keçirildiyini xatırladan Tahir Budaqov bu ali təhsil ocağının hər zaman nümunəvi fəaliyyəti ilə seçildiyini və bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski Azərbaycanın tərəqqisində Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, hələ SSRİ dövründə ölkəmizin yüksəlişini təmin edən Ulu Öndər müstəqilliyin bərpasından sonra yenidən siyasi hakimiyyətə gəldikdən sonra xalqımıza böyük uğurlar qazandırdı: “Bu gün isə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan qüdrətli və qalib dövlətə çevrilib”.

Azərbaycanda 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunmasının əhəmiyyətindən bəhs edən Vaqif Şadlinski Ümummilli Liderin bu sahədə əvəzsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, 1969-cu ildən etibarən Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda, xüsusilə Bakıda möhtəşəm şəhərsalma işləri həyata keçirilib: “Yeni ərsəyə gətirilən tikililərdə daha çox milli memarlıq ənənələrinə üstünlük verilib. Cari ildə isə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində yerli və beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycanı bu baxımdan dünyaya daha yaxından tanıdacaqdır”.

Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbəsi Azərin Şükürlü çıxışında bildirib ki, bu gün Azərbaycan gənclərinə təhsil almaq, öz potensialını reallaşdırmaq və inkişaf etmək üçün yaradılmış imkanlar gələcəyə inamı daha da möhkəmləndirir: “Bu inamın







arxasında güclü dövlət siyasəti və ardıcıl inkişaf strategiyası dayanır. Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmaq mənim üçün sadəcə siyasi seçim deyil. Bu, şüurlu və məsuliyyətli qərardır. Bu qərar dövlətçiliyimizə sədaqət, müasir Azərbaycanın inkişaf modelinə inam və gələcəyin quruculuğunda fəal iştirak istəyindən doğur. Yeni Azərbaycan Partiyası gənclər üçün geniş imkanlar platformasıdır. Burada gənclərin təşəbbüsləri dəstəklənir, ideyalarına dəyər verilir və onların ictimai-siyasi fəallığı təşviq olunur. Bizim üzərimizə isə böyük məsuliyyət düşür. Dövlətimiz bizə güvənir. Bu inamı doğrultmaq isə bizim borcumuzdur”.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 29 sentyabr tarixli Sərəncamı ilə təltif olunmuş Rafiq Musa oğlu Məmmədhəsənova 2-ci dərəcəli “Əmək” ordeni təqdim olunub. Rafiq Məmmədhəsənov fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Sonra partiya sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonra konsert proqramı təqdim olunub. Sonda xatirə şəkli çəkdirilib.

# Süni intelektlə hazırlanan saxta videolara görə kim məsuliyyət daşıyır?

*Süni intellekt texnologiyalarının sürətlə inkişafı son illərdə informasiya mühitində böyük dəyişikliklər yaradıb. SİA mövzu ilə bağlı araşdırma edib: Xüsusilə görüntü və səs emalı sahəsində yaranan yeni alətlər real görüntülərə çox bənzəyən saxta videoların hazırlanmasını mümkün edir. Bu cür videolar adətən “deepfake” texnologiyası vasitəsilə hazırlanır və bəzən adi istifadəçilər üçün onların saxta olduğunu ayırd etmək çox çətin olur. Bu isə informasiya təhlükəsizliyi və ictimai etibar baxımından ciddi problemlər yaradır.*



ARAŞDIRMA

Mövzu ilə bağlı hüquqşünas Ramil Süleymanlı bildirib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi-ndə süni intellektlə bağlı cinayətlərin ayrıca və birbaşa tənzimi nəzərdə tutulmasa da, bu cür əməllər mövcud cinayət və mülki hüquq normaları əsasında məsuliyyət yaradır:

“Qanunvericilikdə xüsusi maddənin olmaması həmin əməlin cəzasız qalması demək deyil. Belə hallarda əsas məsuliyyət saxta və ya manipulyasiya olunan (məsələn, süni intellekt vasitəsilə yaradılan) videonu hazırlayan, sifariş edən, yayan və yayılmasına qəsdən kömək edən şəxslərin üzərinə düşür. Bu prosesdə iştirak edən bütün şəxslər - montaj edən, texniki dəstək göstərən və ya paylaşan şəxslər də məsuliyyətə cəlb oluna bilər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə, 147-ci maddə-Böhtan (bilə-bilə yalan məlumat yayma), 148-ci maddə-Təhqir (şərəf və ləyaqətin alçaldılması), 156-cı maddə – Şəxsi və ailə sirrinin yayılması, o cümlədən intim görüntülərin qanunsuz əldə edilməsi və yayılması, 242-ci maddə- Pornoqrafik materialların qanunsuz yayılması, 182-ci maddə – Hədə-qorxu ilə tələb etmə əgər həmin materiallardan istifadə edərək şəxsdən pul və ya digər əmlak tələb olunarsa təsir dairəsinə düşür. Mülki hüquqi məsuliyyət baxımından isə zərərçəkən şəxs sübutları toplamalı və məhkəməyə müraciət etməlidir. Burada əsas məqsəd şəxsin şərəf və ləyaqətinin müdafiəsi, saxta videonun həqiqətə uyğun olmadığının təkzib edilməsi, həmçinin vurulan maddi və mənəvi zərərin ödənilməsidir. Beləliklə, süni intellekt vasitəsilə hazırlanan saxta videolarla bağlı xüsusi norma olmasa da, mövcud qanunvericilik bu cür halların hüquqi qiymət verilməsi və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması üçün kifayət qədər hüquqi əsas yaradır”.

Süni intellekt vasitəsilə hazırlanmış saxta videoların yayılması informasiya təhlükəsizliyinə və ictimai etimada hansı riskləri yaradır və bu risklərin qarşısını almaq üçün hansı mexanizmlər tətbiq olunmalıdır?

Mütəxəssislərin fikrincə, süni intellekt vasitəsilə hazırlanan saxta videolar təkcə əyləncə məqsədilə deyil, həm də manipulyasiya, dezinformasiya və insanların nüfuzuna zərər vurmaq üçün istifadə edilə bilər. Xüsusilə sosial şəbəkələrdə belə videolar sürətlə yayılır və qısa müddətdə minlərlə insan tərəfindən izlənilir. Nəticədə saxta məlumatlar həqiqət kimi qəbul edilə bilər və bu, cəmiyyətin məlumat alma prosesinə mənfi təsir göstərir.

Bəzi hallarda bu videolar tanınmış şəxslərin, dövlət rəsmilərinin və ya ictimai xadimlərin adından saxta çıxışlar kimi hazırlanır. Belə məzmunlar yayıldıqda cəmiyyətdə çaşqınlıq yarada, hətta müəyyən siyasi və sosial gərginliklərə səbəb ola bilər. Digər tərəfdən, bu cür videolar bəzən adi vətəndaşlara qarşı da istifadə olunur. Məsələn, kiminsə görüntüsünün və ya səsinin dəyişdirilərək başqa məzmunla təqdim edilməsi həmin şəxsin reputasiyasına ciddi zərər vura bilər. Belə hallar xüsusilə sosial mediada geniş yayılaraq insanların şəxsi həyatına müdaxilə və psixoloji təzyiq kimi nəticələrə gətirib çıxarır.

Azərbaycanda süni intellekt vasitəsilə hazırlanan saxta videoların qarşısını almaq və belə halları cəzalandırmaq üçün mövcud qanunvericilik hansı imkanları yaradır?

Bəzi ekspertlər hesab edir ki, süni intellekt texnologiyalarının bu cür sui-istifadəsi gələcəkdə kibercinayətlərin yeni formalarının yaranmasına səbəb ola bilər. Çünki texnologiya inkişaf etdikcə saxta məzmunların daha real görünməsi ehtimalı artır və onları aşkar etmək daha çətinləşir. Bu isə həm hüquq-mühafizə orqanları, həm də cəmiyyət üçün yeni çağırışlar yaradır.

**Süni intellektlə hazırlanmış saxta videoların yayılmasına görə məsuliyyət videonu hazırlayan şəxsin, onu yayan istifadəçilərin, yoxsa platformaların üzərinə düşür?**

Bəzi hallarda insanlar videonun saxta olduğunu bilmədən onu paylaşa bilər. Lakin həmin video daha sonra geniş auditoriyaya yayılaraq ciddi nəticələrə səbəb olur. Bu səbəbdən mütəxəssislər hesab edir ki, sosial şəbəkə istifadəçilərinin də informasiya məsuliyyəti məsələsinə daha diqqətli yanaşması vacibdir. Bundan əlavə, sosial media platformalarının da belə məzmunların yayılmasının qarşısını almaqda müəyyən rolu ola bilər. Bir çox platforma artıq süni intellektlə hazırlanmış saxta məzmunların aşkar edilməsi üçün xüsusi alqoritmlər və xəbərdarlıq sistemləri tətbiq etməyə çalışır.

Digər mühüm məsələ isə cəmiyyətin bu texnologiya barədə məlumatlılıq səviyyəsidir. İnsanlar deepfake texnologiyası haqqında kifayət qədər məlumatlı olmadıqda saxta videoları real hesab edə və yanlış məlumatlara inana bilərlər. Buna görə də ekspertlər hesab edir ki, media savadlılığının artırılması belə halların qarşısının alınmasında mühüm rol oynaya bilər.

**Azərbaycanda hansı yeni hüquqi və texnoloji tədbirlərin görülməsi planlaşdırılır?**

Bəzi mütəxəssislər həmçinin hesab edir ki, dövlət qurumları, media və texnologiya şirkətləri bu sahədə birgə fəaliyyət göstərməlidir. Bir tərəfdən hüquqi mexanizmlər gücləndirilməli, digər tərəfdən isə texniki alətlər vasitəsilə saxta məzmunların aşkarlanması və bloklanması mexanizmləri inkişaf etdirilməlidir.

**Günay Hacıyeva**

# MN: İran Naxçıvana 4 PUA ilə hücum edib, biri sıradan çıxarılıb



İran İslam Respublikası silahlı qüvvələrinin Baş qərargahının İranın bütün ölkələrin, xüsusən də müsəlman və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşdığını bəyan etməsi və bu xüsusda İran tərəfindən Azərbaycana qarşı pilotsuz uçuş aparatları ilə bu gün törədilmiş hücumları təkzib etməsi heç bir halda məqbul sayıla bilməz.

Bu barədə SİA-ya Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, texniki vasitələrlə təsbit edilib ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hucum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb. "Qeyd olunanları nəzərə alaraq, İran İslam Respublikasının silahlı qüvvələrindən aşkar inkarçılığa son qoymağı, baş vermiş hadisəyə görə üzrxahlıq ifadə etməyi və İranın aidiyyatı qurumları tərəfindən günahkarların cəzalandırılmasını gözləyirik”, - deyə açıqlamada qeyd olunub.

# “Naxçıvana dron hücumları İran-Azərbaycan münasibətlərində gərginlik yaradıb”

*“İran İslam Respublikasının Naxçıvan istiqamətində həyata keçirdiyi dron hücumları Azərbaycan cəmiyyətində ciddi narahatlıq və kəskin etiraz doğurmuşdur”. Bu sözləri SİA -ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib. Onun sözlərinə görə, bu hadisələr ölkə ictimaiyyəti tərəfindən qətiyyətlə pislənilir. Çünki Azərbaycan və İran qonşu dövlətlər olaraq uzun illərdir qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurmağa çalışıblar. Azərbaycan hər zaman İranın ərazi bütövlüyünə hörmətlə yanaşdığını və iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinin tərəfdarı olduğunu dəfələrlə bəyan edib.*






ŞƏRH

Lakin belə bir şəraitdə Naxçıvan istiqamətində dron hücumlarının həyata keçirilməsi və müəyyən dağıntıların baş verməsi beynəlxalq hüququn norma və prinsiplərinin pozulması kimi qiymətləndirilir. Bu cür addımlar təkcə iki ölkə arasındakı münasibətlərə deyil, ümumilikdə regionda mövcud olan sabitlik və təhlükəsizlik mühitinə də mənfi təsir göstərir. Qonşuluq və qarşılıqlı etimad prinsipləri fonunda bu cür hərəkətlər ciddi narazılıq doğurur və diplomatik münasibətlər baxımından qəbuledilməz hesab olunur.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, ölkə ərazisindən İrana qarşı hər hansı hərbi və ya siyasi fəaliyyətə icazə verilməyib və verilməyəcək. Həmçinin Azərbaycan regionda hərbi qarşıdurmaların və müharibələrin genişlənməsinin əleyhinə olduğunu açıq şəkildə bildirib. Dövlət rəhbərliyi tərəfindən də bu məsələ ilə bağlı dəfələrlə vurğulanıb ki, Azərbaycan öz ərazisini üçüncü ölkələrə qarşı istifadə etdirmir və regionda sülhün qorunmasının tərəfdarıdır. Belə bir şəraitdə İran tərəfindən həyata keçirilən dron hücumları və mümkün təxribat xarakterli addımlar qonşuluq münasibətlərinə ciddi zərbə vurur və regionda sabitliyin pozulmasına səbəb ola bilər. Xüsusilə Cənubi Qafqaz regionunda sabit mühitin formalaşdığı bir dövrdə bu cür hadisələrin baş verməsi əlavə gərginlik yaradan amil kimi qiymətləndirilir. Bu baxımdan, baş vermiş hadisələrə İran tərəfi tərəfindən aydın və əsaslandırılmış izah verilməsi zəruridir. İran rəsmilərinin bu məsələ ilə bağlı rəsmi mövqe bildirməsi və yaranmış vəziyyətə münasibət açıqlaması gözlənilir. Əks halda, Azərbaycan öz təhlükəsizliyini təmin etmək və mümkün təhdidlərin qarşısını almaq üçün adekvat tədbirlər görmək hüququnu özündə saxlayır”.

**Günay Hacıyeva**

# Azərbaycan istənilən təhdidin qarşısını almağa qadirdir

Martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktlarının həyata keçirilməsi bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olmuşdur. Azərbaycan-İran dövlətlərarası münasibətlərinin ruhuna və beynəlxalq hüquq normalarına zidd olan bu xain təxribat cəhdi regionda hərbi-siyasi gərginliyin artmasına xidmət göstərir.

Ərazi bütövlüyü və mütləq suverenliyini bərpa etməklə yeni reallıqlar yaradan müstəqil Azərbaycan dövləti hər zaman mehriban qonşuluq prinsipinə sadiq olub. Ölkəmizin bu gün milli maraqlar və qlobal çağırışları nəzərə almaqla həyata keçirdiyi konstruktiv siyasət və sülh diplomatiyası regionda etibarlı təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq kontekstində etimad quruculuğuna hədəflənmişdir. Eyni zamanda, Cənubi Qafqazın lider dövləti kimi hərbi-strateji potensialını daha da gücləndirən Azərbaycan milli və regional təhlükəsizliyə yönəlmiş istənilən təhdidin qarşısını almağa qadirdir. Qonşu İran dövlətinin bu hücum aktını qətiyyətlə pisləyir, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı qərəzli təbliğata və bütün təxribat cəhdlərinə birmənalı şəkildə son qoyulmasını tələb edirik!

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı***




# "Ailə dəyərləri bu gün"



***Martın 3-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Xəzər rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ailə dəyərləri bu gün" mövzusunda tədbir keçirilib.***

Zirə Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov mövzunun aktuallığını və ailə dəyərlərinin qorunmasının önəmini diqqətə çatdırıb. O, həmçinin Ulu Öndər Heydər Əliyevin ailə institutunun möhkəmləndirilməsinə verdiyi böyük önəm və tövsiyələri xatırladıb.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva bildirib ki, ailə cəmiyyətin ən fundamental institutudur. Onun sözlərinə görə, ailə sadəcə sosial vahid deyil, dəyərlərin ötürüldüyü, şəxsiyyətin formalaşdığı, qarşılıqlı hörmətin və məsuliyyət hissinin öyrənildiyi ilk mühitdir. Ailədə qazandığımız mənəvi dəyərlər bütövlükdə cəmiyyətin dayanıqlığını müəyyən edir.

Z.Musayeva qeyd edib ki, bu gün ailə anlayışı qlobal miqyasda sürətli sosial dəyişikliklərin, texnoloji transformasiyanın, miqrasiya proseslərinin və yeni çağırışların təsiri altındadır: "Rəqəmsallaşma, urbanizasiya, iqtisadi dinamika və dəyişən sosial rollar ailə münasibətlərinə yeni çalarlar gətirir. Ailə dəyərləri yalnız mədəni ənənə məsələsi deyil, eyni zamanda insan hüquqları, sosial siyasət və dayanıqlı inkişaf kontekstində də mühüm önəm kəsb edir. Məhz ailə institutu sosial həmrəyliyin, qarşılıqlı dəstəyin və ictimai sabitliyin əsas dayaqlarından biridir".



YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, cəmiyyətin mənəvi dayanıqlığı təsadüfi formalaşmır. Bu amillər uzun illər ərzində formalaşan dəyərlər sisteminin, mədəni ənənələrin və nəsillərarası ötürülən məsuliyyət anlayışının nəticəsidir. Həmin sistemin təməlində isə ailə dayanır. Ailə cəmiyyətin ilkin və ən təsirli institutudur. Çünki burada hər bir insanın xarakteri formalaşır, dünyagörüşü müəyyən edilir və vətəndaş mövqeyi bərqərar olur.



S.Qəhrəmanova qeyd edib ki, bu gün ailə institutunun mədəni dayaqlarının gücləndirilməsi strateji əhəmiyyət daşıyır. Çünki ailə daxilində formalaşan münasibət sonradan ictimai münasibətlərin strukturuna çevrilir. "Əgər ailədə hörmət, dialoq və qarşılıqlı anlayış mövcuddursa, cəmiyyətdə də sosial harmoniya möhkəmlənir. Unutmamalıyıq ki, gələcək nəsillərin xarakteri yaratdığı mühitlə müəyyən olunur. Sağlam ailə yalnız fərdi xoşbəxtlik deyil, milli dayanıqlılıq deməkdir. Güclü ailə modeli güclü cəmiyyətin və dövlətin əsasını təşkil edir", - deyə YAP Veteranlar Şurasının sədr müavini vurğulayıb.

Xəzər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elşən Qurbanov isə bildirib ki, Azərbaycan xalqı tarixən ailə institutuna xüsusi önəm verib, bu dəyərlər nəsildən-nəslə ötürülərək uğurla qorunub. Böyüyə hörmət, kiçiyə qayğı, qonaqpərvərlik, birlik və qarşılıqlı anlayış Azərbaycan ailəsinin əsas xüsusiyyətlərindəndir: "Bu gün ailə dəyərlərinin qorunması və gənclərin sağlam ailə prinsipləri əsasında tərbiyə olunması hər birimizin üzərinə düşən vacib vəzifələrdəndir". E.Qurbanov deyib ki, Xəzər rayonunda ailə məsələlərinin monitorinqi ilə əlaqədar komissiya fəaliyyət göstərir.

YAP Veteranlar Şurasının üzvü Fidumə Hüseynova bildirib ki, ölkəmizdə ailə modeli uzun illərdən bəri qorunub saxlanılaraq, fundamental dəyərlərini itirmədən günümüzə gəlib çatıb. F.Hüseynova deyib ki, buna baxmayaraq, qloballaşma Azərbaycan ailəsinə də öz təsirini göstərir: "Ən yeni dövr yeni münasibətlər formalaşdırır. Ailəni qiymətli edən milli-mənəvi dəyərlər, ənənələr, adətlərdir. Bu xüsusiyyətlərə malik, ailə modelimizi bütün dünyaya örnək edən zəngin ənənələrimiz var".

F.Hüseynova qeyd edib ki, Azərbaycan ailəsi məhz milli dəyərlər sayəsində həmişə uzunömürlülüyü və möhkəmliyi ilə seçilib: "Səmimiyyət, inam və qarşılıqlı hörmət ailə institutunu daha da möhkəmləndirir".

Çıxış edən YAP İdarə Heyətinin üzvü Rauf Əliyev isə deyib ki, ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. Onun sözlərinə görə, ailə ənənələrin qoruyucusu və ötürücüsüdür. R.Əliyev qeyd edib ki, Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, sosial məsələlərin həllini prioritet vəzifə hesab edir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. "Bu gün ailələrin üzərinə də böyük məsuliyyət düşür. Uşaqlar milli dəyərlərimizə zidd olan vasitələrdən uzaq tutulmalı, bu istiqamətdə fəal təbliğat işləri aparılmalıdır", - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb. Tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Tədbirdə YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ictimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# İran münaqişəsi Avropada qaz qıtlığı yaradıb

***ABŞ-İsrail-İran müharibəsinin nəticələri LNG (Liquefied Natural Gas - Mayeləşdirilmiş Təbii Qaz) istehsalına və daşınmasına mane olduğundan, təchizatı məhdudlaşdırdığından və qiymətlərin kəskin şəkildə yüksəlməsindən sonra Avropanın növbəti qış üçün qaz anbarını doldurmaq kimi onsuz da böyük bir problemi birdən-birə daha riskli və daha bahalı vəziyyətə düşdü.***

Qaz anbarı Avropaya qışda istilik və enerji tələbatını ödəməyə imkan verir və regionun enerji təhlükəsizliyini dəstəkləyir. Bu il ehtiyatların istilik mövsümünü normal səviyyədən çox aşağıda başa vuracağı gözlənilir və bu da Avropanı yayda qitədəki anbar və çənləri doldurarkən daha çox qaz almağa məcbur edir.

2022-ci ildə Ukraynaya olan əməliyyatlardan sonra Rusiya boru kəməri qazının əksər idxalını dayandırdığından bəri Avropa anbarı doldurmaq üçün mayeləşdirilmiş təbii qaz təchizatına getdikcə daha çox güvənir. Bundan əvvəl LNG Avropanın qaz təchizatının təxminən 19%-ni təşkil edirdi. "S&P Global Energy" şirkətinin məlumatına görə, bu payın bu il təxminən 1800 LNG tankerinə bərabər olan 45%-ə və ya 174 milyard kubmetrə çatacağı gözlənilir. Kpler analitiklərinin fikrincə, Avropadakı alıcılar bu yay anbarı doldurmaq üçün təxminən 67 milyard kubmetr LNG tapmalıdırlar ki, bu da ötən illə müqayisədə təxminən 17 milyard kubmetr çoxdur.

Bunun bir hissəsi Norveç, Əlcəzairdən boru kəməri ilə, daha az hissəsi isə Rusiyadan çatdırılacaq, lakin əksəriyyəti LNG yükləri olacaq. İran münaqişəsinin başlanğıcından bəri həm boru kəməri qazının, həm də LNG-nin qiymətləri artıb.

Qətər qlobal LNG tədarükünün beşdə birini təşkil edən qaz yataqlarını bağladıqdan sonra Avropada etalon qaz qiymətləri qısa müddətə 2023-cü ilin əvvəlindən bəri ən yüksək səviyyəyə çatıb və bu həftə təxminən 50% artıb. Qlobal etalon LNG müqaviləsi olan Yaponiya-Koreya Markeri də alıcıların itirilmiş Qətər həcmlərini əvəz etmək üçün tələsdiyi üçün 68%-ə qədər artıb.

Reuters-in hesablamalarına görə, Avropanın əlavə qaz hesabı ötən cümə günü 6,7 milyard dollardan çərşənbə günü təxminən 10,1 milyard dollara yüksəlib. Yayda 67 milyard kubmetrlik tam doldurma üçün qiymət təxminən 13,6 milyard dollar artaraq 40 milyard dollara çatıb.

2021-ci ildən bəri Avropanın etalon təbii qaz müqaviləsinin qiymətini izləyən xətt qrafiki qiymətlərin 2026-cı ildə bir illik maksimuma yüksəldiyini, lakin 2022-ci ildə rekord səviyyədə qaldığını göstərir. Dörd analitikin fikrincə, Avropanın qaz anbarları mart ayının sonunda təxminən 22-27% dolu olacaq, 5 illik orta göstərici isə təxminən 41% təşkil edəcək. Yaxın Şərqdən tədarükün pozulması səbəbindən növbəti dörd həftə ərzində daha az LNG gələrsə, anbarlar daha da boşala bilər.

Avropa qaz anbarı səviyyələrinin tarixə görə xətti qrafiki (dolu faiz), 2022-2026-cı illəri beş illik orta göstərici ilə müqayisə edir. Anbar qışa orta səviyyədən aşağı düşür və 2022-ci ildən bəri ən aşağı səviyyəyə düşür ki, bu da gözləniləndən daha soyuq hava şəraitini əks etdirir.

"Enerji Aspects" analitiki Erisa Pasko bildirib ki, Hörmüz boğazında gəmiçiliyin iflici bir ay davam edərsə, Avropa ehtiyatları qışın sonuna qədər tarixi minimuma düşə bilər və oktyabr ayının sonuna qədər doldurma səviyyələrinin aşağı düşməsinə səbəb ola bilər.

Analitiklərə görə, ildə təxminən 120 milyard kubmetr və ya qlobal LNG tədarükünün təxminən 20%-i su yolundan keçir və tədarükün beşdə dördü Asiyaya gedir. Bir aylıq fasiləyə əsaslanaraq, "SEB Research" əmtəə analitiki Ole Hvalbye, təxminən 7 milyon ton LNG-nin, təxminən 9,7 milyard kubmetrin, qlobal bazardan çıxarılacağını və Avropanın mövcud yüklər uğrunda Asiyanın rəqabəti səbəbindən faktiki olaraq təxminən 5,5 milyon ton və ya 7,6 milyard kubmetr itirə biləcəyini söyləyib. Avropanın ən böyük qaz tədarükçüsü olan Norveç artıq maksimum gücdə qaz vurur və bu yay anbara vurulan qaz boru kəməri və LNG qarışığı olsa da, əlavə tələbat LNG-dən ödənilməlidir. "Energy Aspects"dən Pasko bildirib ki, daha yüksək qiymətlər qazı saxlamaq üçün stimulları məhdudlaşdıracaq, çünki münaqişə səngidikcə və daha çox LNG tədarükü internetə daxil olduqda qiymətlərin sonda aşağı düşəcəyi gözlənilir. Amerika Birləşmiş Ştatları Avropaya LNG-nin ən böyük təchizatçısıdır və ümumilikdə regionda ikinci ən böyük qaz tədarükçüsüdür. Vaşinqton yeni layihələrin həyata keçirilməsi və mövcud tədarükü artırması ilə Avropa Birliyini daha çox mayeləşdirilmiş təbii qaz almağa məcbur etsə də, Qətərin itirilmiş həcmlərini kompensasiya etmək üçün hasilatı kifayət qədər tez artırmaq üçün edə biləcəyi çox az şey var.

Avropa Komissiyasının məlumatları göstərir ki, 2025-ci ildə Qətər AB-nin qaz təchizatının 3,5%-ni təşkil edib, ABŞ-ın payı isə 25,4% təşkil edib. Beynəlxalq Enerji Agentliyinin yanvar ayında verdiyi məlumata görə, qlobal mayeləşdirilmiş təbii qaz təchizatının 2026-cı ildə 7%-dən çox və ya 42 milyard kubmetrdən çox artacağı proqnozlaşdırılır və ən böyük əlavələr ABŞ-dan gəlir.

**Lalə Mehralı**

# Cənub Qaz Dəhlizi layihəsi enerji təhlükəsizliyinin təminatıdır



*Vilayət İSMAYILOV, iqtisad elmləri doktoru, professor*

Göründüyü kimi Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır. Məhz İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olan Cənub Qaz Dəhlizinin reallaşması da aparılan uğurlu siyasətin nəticəsində nəinki region, həmçinin bütün Avropa üçün ən vacib təşəbbüslərdən biridir.

Prezident İlham Əliyev martın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasında iştirak edərək geniş nitq söyləmişdir. Hesab edirəm ki, iclasın Bakı Konqres Mərkəzində keçirilməsi bu strateji xəttin məntiqi davamı kimi yadda qaldı. Bu istiqamətli toplantılar Azərbaycanın enerji siyasətinin ardıcıllığını və beynəlxalq əməkdaşlığa verdiyi önəmi bir daha əks etdirir.

Əlbəttə ki, qaz təchizatının şaxələndirilməsi istiqamətində atılan addımlar çox vacibdir. Ölkəmizdə Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işi, eləcə də Aİ ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədi xüsusi əhəmiyyət kəsb edir. Bir sıra Avropa ölkələri üçün enerji təhlükəsizliyi konteksti Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Müasir dünyada Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Dövlətimizin başçısı çıxışında ölkənin enerji siyasətinin prioritet istiqamətlərini və əldə olunan nəticələri təqdim edərək qeyd etdi ki, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır. Onu da qeyd edək ki, Azərbaycandan Avropaya "yaşıl enerji"nin tədarükünü nəzərdə tutan Qara dəniz enerji kabeli layihəsini regional və milli enerji təhlükəsizliyinin gücləndirilməsi, eləcə də qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi baxımından vacib hesab edilməlidir. Qara dəniz sualtı elektrik kabeli davamlı enerji ötürülməsi zəncirinin təmin edilməsində həlledici rol oynayacaq.

Əlavə olaraq, Azərbaycan alternativ enerji mənbələrinə, külək, günəş və hidroenerji layihələrinə investisiyaları genişləndirir. Prezident çıxışı zamanı qeyd etdi ki, 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi istehsal ediləcək, bu da həm daxili, həm də ixrac tələbatı üçün enerji potensialından istifadəyə imkan verəcək. Ölkəmizin başçısı həmçinin ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasına uyğun olaraq enerji, süni intellekt və digər sahələrdə əməkdaşlıq, eləcə də Ermənistanın işğalından azad edilmiş ərazilərdə hidroenerji layihələrinin inkişafına da toxunaraq, bu istiqamətdə konkret layihələrin həyata keçirilməsinin və qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin vacibliyini söylədi.

Bu baxımdan, dünya dövlətləri ilə Azərbaycanın müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlərarası qarşılıqlı anlaşmanın yaranmasına, beynəlxalq əlaqələrin möhkəmlənməsinə və davamlı inkişafa öz təsirini göstərir. Cənab İlham Əliyevin apardığı məqsədyönlü müdrik xarici siyasəti nəticəsində dünyada Azərbaycanla dostluq, müttəfiqlik münasibətləri quran dövlətlərin sayı artıb. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir.

SON SƏHİFƏ
SƏS
6 mart
2026-cı il

# Banklarda dollar alışına qoyulan limitlərin səbəbi nədir?



***Banklarda ABŞ dollarına məhdudiyyət tətbiq olunarsa, bunun əsas səbəbləri makroiqtisadi sabitliyi qorumaq və valyuta bazarını tənzimləmək məqsədinə xidmət edir. Banklar Mərkəzi Bankın dollar ehtiyatları ilə sinxron işləyir. Məhdudiyyətlər valyuta ehtiyatlarının tükənməsinin qarşısını alır və ölkənin xarici öhdəliklərini yerinə yetirməsini təmin edir. SİA mövzu ilə bağlı araşdırma edib: Vətəndaşlar bildirirlər ki, bank filiallarında və mobil tətbiqlərdə dollar almaq istəyərkən müxtəlif limitlərlə qarşılaşırlar və bu vəziyyət narazılıq yaradır.***

## Banklarda dollar alışına qoyulan limitlər vətəndaşlara necə təsir edir?

Banklarda dollar alışına limit qoyularsa , bu hal vətəndaşlara gündəlik valyuta ehtiyaclarını məhdudlaşdırır, böyük məbləğdə dollar almaq istəyənlər planlarını mərhələli həyata keçirməli olur, bank filiallarında sıxlıq və növbələr yaranır, bazarda alternativ mənbələrə yönəlmə qismən qiymət artımına səbəb ola bilər, maliyyə planlaması çətinləşir və psixoloji gərginlik yaradır; eyni zamanda, bu limitlər milli valyutanın sabitliyini qoruyur və iqtisadiyyatın risklərini azaltmaq məqsədi daşıyır.

Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirlidən ekspert rəyi öyrəndik. Onun sözlərinə görə, Azərbaycanda fiziki şəxslər banklardan və valyutadəyişmə məntəqələrindən nağd ABŞ dolları və ya digər xarici valyutanı manatla dəyişərkən gündəlik limit tətbiq olunur: ”Bu limit bir nəfər üçün 20 000 manat və ya onun dollarla ekvivalenti qədərdir (təqribən 11 700 USD civarında). Bu o deməkdir ki, bir gün ərzində bir şəxsin bankdan nağd valyuta almaq və ya satmaq əməliyyatlarının ümumi məbləği bu hüdudu keçə bilməz.

Əlavə olaraq müəyyən məbləğlərdən yuxarı əməliyyatlar üçün şəxsiyyət vəsiqəsi tələb olunur; məsələn, bir müştəriyə 500 USD dən çox pul satılarkən və ya 10 000 USD dən çox pul alarkən şəxsiyyəti təsdiq edən sənəd göstərilməlidir. Komersiya banklarında isə bu ümumi Mərkəzi Bank limitinə əlavə olaraq öz daxili qaydalarına görə daha sərt limitlər də qoyula bilər. Bəzi banklarda məhdudiyyət daha aşağı ola bilər, kassadakı kassa balansından asılı olaraq böyük məbləğlər göstərilməyə bilər və ya əlavə sənəd (gəlir mənbəyi barədə) tələb olunur.

### Yəni ümumilikdə:

Dövlət tənzimləməsi ilə hər bir şəxs üçün gündəlik 20 000 AZN ə qədər valyuta alış satışı mümkündür.

Bu məbləğdən çox valyuta almaq və ya satmaq üçün banklar əlavə sənəd və prosedurlar tələb edə bilər.

Praktiki olaraq bankın öz qaydalarına görə bəzi filiallarda daha aşağı limitlər də tətbiq oluna bilər. Vətəndaşların sözlərinə görə, problem yalnız filiallarda deyil, onlayn bankçılıq xidmətlərində də müşahidə olunur. Mobil tətbiqlər vasitəsilə dollar almaq istəyən şəxslər tez-tez “əməliyyat mümkün deyil” və ya “limit bitib” kimi bildirişlərlə qarşılaşırlar. Bu isə bank xidmətlərinə olan etimadın azalmasına səbəb olur”.

## Onlayn bank xidmətlərində yaranan məhdudiyyətlər hansı narahatlıqları doğurur?

Maliyyə ekspertləri bildirirlər ki, belə məhdudiyyətlər adətən bazarda xarici valyutaya tələbin artdığı dövrlərdə tətbiq edilir. İnsanlar məzənnədə mümkün dəyişikliklərdən ehtiyat edərək yığımlarını dollar şəklində saxlamağa üstünlük verdikdə bankların valyuta ehtiyatlarına əlavə təzyiq yaranır. Digər tərəfdən, bank sektorunun nümayəndələri bildirirlər ki, limitlər tam qadağa deyil, sadəcə satışın tənzimlənməsi məqsədi daşıyır. Banklar gündəlik və ya aylıq kvotalar vasitəsilə mövcud valyuta ehtiyatlarının daha balanslı paylanmasına çalışdıqlarını qeyd edirlər.

## Dollar tələbinin artması bank siyasətinə necə təsir edir?

Bəzi iqtisadçılar hesab edir ki, psixoloji faktorlar bu prosesdə mühüm rol oynayır. Sosial şəbəkələrdə yayılan xəbərlər və şayiələr insanlar arasında “dollar qıtlığı” qorxusu yaradır və nəticədə tələb daha da artır. Bu isə bazarda süni gərginlik formalaşdırır. Mərkəzi Bank tərəfindən isə rəsmi olaraq ölkədə valyuta təminatı ilə bağlı ciddi problem olmadığı dəfələrlə vurğulanıb. Rəsmilər bildirirlər ki, Azərbaycanın strateji valyuta ehtiyatları yüksək səviyyədədir və manatın sabitliyi qorunur.




## Banklar limitləri hansı məqsədlə tətbiq etdiklərini bildirirlər?

Ekspertlər əlavə edir ki, banklararası valyuta bazarında əməliyyatlar davam edir və iri şirkətlər üçün dollar alışında ciddi məhdudiyyət müşahidə olunmur. Məhdudiyyətlər əsasən fiziki şəxslərin pərakəndə alışlarına yönəlib. Bununla belə, vətəndaşlar banklar arasında fərqli qaydaların tətbiq edilməsindən də narazıdırlar. Bəzi banklarda dollar almaq mümkün olduğu halda, digərlərində limitlərin daha sərt olması suallar doğurur və vahid yanaşmanın olmaması tənqid edilir.

## Sosial psixoloji amillər valyuta bazarına necə təsir göstərir?

İqtisadi müşahidəçilər hesab edir ki, şəffaf məlumatlandırma bu kimi halların qarşısını almaqda mühüm rol oynaya bilər. Banklar limitlərin səbəblərini açıq şəkildə izah etdikdə ictimai narahatlıq əhəmiyyətli dərəcədə azalır. Eyni zamanda qeyd olunur ki, mövsümi faktorlar da valyuta tələbinə təsir edir. Xaricə səyahətlərin artdığı dövrlərdə, təhsil ödənişləri və beynəlxalq alış-veriş mövsümündə dollar tələbi ənənəvi olaraq yüksəlir.

## Rəsmi qurumlar valyuta ehtiyatları barədə hansı mövqeni bildirir?

Analitiklərin fikrincə, bazarda uzunmüddətli sabitliyin qorunması üçün həm banklar, həm də tənzimləyici qurumlar arasında koordinasiya vacibdir. Valyuta bazarında balansın saxlanması maliyyə sisteminin dayanıqlılığı baxımından əsas şərtlərdən biridir.

Vətəndaşlar isə bank xidmətlərinin daha əlçatan və proqnozlaşdırıla bilən olmasını istəyirlər. Onların fikrincə, şəxsi vəsaitlərini istədikləri valyutada sərbəst şəkildə əldə edə bilmələri maliyyə azadlığının vacib göstəricisidir. Mövzu ətrafında müzakirələrin davam etməsi göstərir ki, valyuta bazarında baş verən dəyişikliklər cəmiyyət tərəfindən diqqətlə izlənilir. Yaxın dövrdə bankların və rəsmi qurumların atacağı addımlar bu narazılıqların azalmasında həlledici rol oynaya bilər”.

***Günay Hacıyeva***

ARAŞDIRMA


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!



*Baş redaktor:*
**Bəhruz Quliyev**



Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**



**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**